**1.** $2x+y=5$ sm olarsa, altıbucaqlının perimetrini tapın.




A) 6 sm
B) 12 sm
C) 15 sm
D) 10 sm
E) 5 sm

*(6 aprel 2025, DİM)*

**2.** Diaqonalları sayı 9 olan qabarıq çoxbucaqlının tərəflərinin sayını tapın.

A) 9 B) 8 C) 7 D) 6 E) 5

*(9 mart 2025, DİM)*

**3.** *ABCD* trapesiyasında $AB=6$ sm, $CD=8$ sm, *CE* parçası bu trapesiyanı romb və düzbucaqlı üçbucağa ayırarsa, $P_{ABCD}$ -ni tapın.




*(2 mart 2025, DİM)*

**4.** Kvadratların diaqonalları, uzunluğu $6\sqrt{2}$ olan *AB* parçası üzərində olarsa, hər üç kvadratın perimetrləri cəmini tapın.




*(14 aprel 2024, DİM)*

**5.** Perimetrləri cəmi 34 sm olan *ABCD* və *CEFM* paraleloqramlarının diaqonalları bir düz xətt üzərindədir. $AF = 13$ sm olarsa, *ABC* və *CFM* üçbucaqlarının perimetrləri cəmini tapın.




*(10 mart 2024, DİM)*

**6.** Perimetri 156 və daxili bucaqlarının cəmi $1800^\circ$ olan düzgün çoxbucaqlının tərəfinin uzunluğunu tapın.

*(3 mart 2024, DİM)*

**7.** Diaqonalı $\sqrt{8}$ olan kvadratın tərəfini tapın.

A) $\sqrt{6}$ B) $\sqrt{2}$ C) 3
D) $\sqrt{3}$ E) 2

*(2 aprel 2023, DİM)*

**8.** ABCD dördbucaqlısında $AB = \sqrt{73}$ $BC = 5$ və $CD = 2AD$ olarsa, $AD$-nin uzunluğunu tapın.




*(2 aprel 2023, DİM)*

**9.** Düzbucaqlı trapesiyanın oturacaqları fərqi 3-dür. Böyük diaqonalı $\sqrt{41}$, böyük yan tərəfi isə 5-dir. Trapesiyanın perimetrini tapın.

*(12 mart 2023, DİM)*

**10.** Bərabəryanlı trapesiyanın hündürlüyü yan tərəflə $45^{o}$-li bucaq əmələ gətirir. Trapesiyanın hündürlüyü 8, orta xətti 18 olarsa, onun oturacaqlarını tapın.

A) 8 və 28 B) 10 və 26
C) 12 və 24 D) 14 və 22
E) 16 və 20

*(5 mart 2023, DİM)*

**11.** Bir bucağı 35° olan paraleloqramın böyük bucağını tapın.

A) 145° B) 135° C) 55°
D) 90° E) 140°

*(3 aprel 2022, DİM)*

**12.** Sahəsi $48\ sm^2$ olan düzbucaqlının eni uzunluğunun $75\%$-nə bərabərdir. Bu düzbucaqlının perimetrini hesablayın.

*(13 mart 2022, DİM)*

**13.** Perimetri 51 sm olan ABCD paraleloqramının BC tərəfi üzərində M nöqtəsi götürülmüşdür. BM=AB, CM=CD və AM=15 sm olarsa, MD-ni tapın.




*(12 mart 2022, DİM)*

**14.** Düzbucaqlının perimetri 44, uzunluğu isə 16 olarsa, enini tapın.

A) 6 B) 22 C) 36 D) 28 E) 38

*(6 mart 2022, DİM)*

**15.** Kvadratın sahəsi 25 $sm^2$ olarsa onun diaqonalını tapın.

A) 5 sm B) 10 sm
C) $5\sqrt{2}$ sm D) $\sqrt{2}$ sm
E) 4 sm

*(5 mart 2022, DİM)*

**16.** ABCD paraleloqramında A bucağının tənböləni BD diaqonalını 2:3 nisbətində bölür. Paraleloqramın böyük tərəfi 9 sm olarsa, onun perimetrini tapın.




*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1D 2D 3 (36) 4 (24) 5 (30) 6 (13)

7E 8 (4) 9 (6) 10B 11A 12 (28) 13 (8)

14A 15C 16 (30)